# Lənkəranda 1918-ci il Mart soyqırımı

## *Erməni quldurların qanlı caynağı yurdun bu kənar bölgəsinə də çatmışdı*

**1918-ci il Mart qırğını XX əsr Azərbaycan tarixinin ən faciəli səhifələrindən biri – xalqımıza qarşı törədilən qanlı soyqırımıdır. Bu faciə Lənkərandan da yan keçməmiş, dinc əhaliyə qarşı misli görünməmiş vəhşiliklər törədilmişdir.**





Tədqiqatçı alim Hacı Mirhaşım Talışlı ilə araşdırmalarımızda qeyd olunur ki, Bakı qırğınından sonra Lənkəranda və ətraf rayonlarda 40-a qədər kənd yandırılmış, günahsız insanlar qılıncdan keçirilmiş və güllələnmişlər. Faktlar isə belədir: həmin dövrdə Gərmətük və Kərgəlan kəndlərinin hər birində 70-dək, Mamusta kəndində 30-dək, Sütəmurdovda 25-dən çox günahsız insan hadisənin qurbanı olmuşdur.

Şıxəkəran, Xolmili, Şağlakücə kəndlərində, Ləkər körpüsü ətrafında görünməmiş talanlar və qırğınlar törədilmişdi. Vilvan, Veravul, Girdəni, Cil, Osakücə kəndlərinin sakinləri qırğından qurtulmaq üçün yaxınlıqdakı meşələrə çəkilmişdilər. Şəhərdə görünməmiş talanlar və qırğınlar törədilmiş, mayakın yanında yüzlərlə insan güllələnmişdir.

2002-ci il martın 31-də Lənkəranın vağzalyanı meydanının iki addımlığında soyqırımı qurbanlarına həsr edilmiş Xatirə-park kompleksi salınıb. 2007-ci ildə park yeni tərtibatda qurulub. 1918-ci il mart soyqırımı qurbanlarının xatirəsi hər zaman hüzn və hörmətlə yad edilir. Hər dəfə yolumuz bura düşəndə xəyalım qanadlanır. Postamentdən ətrafa boylanan ana abidəsinə baxdıqca qəlbimizdə kədər qarışıq kövrək hisslər baş qaldırır.

***Ağabacı nənəmin yaddaşında 1918-ci il mart ayı "qaçhaqaç" dövrü kimi qalmışdı. Ömrünün axırınadək üzü gülmədi - nə çəkdisə, ürəyində çəkdi. Hüzr məclislərində isə elə bayatı çəkərdi ki...***

1918-ci il mart soyqırımı gözlərinin qabağında olmuşdu. Gözlənilmədən ətraf kəndləri dəniz tərəfdən top atəşinə tutmuşdular. Əri Ağacan Əzimov (bu sətirlərin müəllifinin ata tərəfdən babası - müəl.) kəndin cavanları ilə kənddən kənara çəkilərək erməni - denikinçi dəstələri ilə vuruşurdu. Atışma qızışanda qadınlar uşaqlarını yanına alıb Osakücə meşəliyinə tərəf üz tutmuşdular. Ağabacı nənəm uşaqlardan yalnız ikisini - Babacan və Zülfünü çiyninə alıb qaça bilmişdi. Hələ bir yaşına çatmamış körpəsi Əliağanı isə Allahın ümidinə buraxaraq həyətdəki yekə nil ağacının oyuğunda gizlədə bilmişdi.

Ağabacı nənəm ətraf sakitləşəndə evə - oğluna tərəf qaçır. Görür ki, körpə hələ də sakitcə uyuyur. İllər keçdi, övladları yaşa doldu. Dörd oğul övladından təkcə Əliağa Əhədov müharibədən qayıtdı. Babacan, Zülfü və Əjdər 1941–1945-ci illərdə faşistlərlə vuruşmada həlak olmuşdular.

Soyqırımı günlərində kənddə təkcə Əhməd Əkbərovun beşatılanı var imiş. O, köməksiz insanları müdafiə edə-edə onları Osakücə meşəliyinə tərəf apara bilmişdi. Ağabacı nənəm danışardı ki, Əhməd Əkbərov qohumumuz Hacı Hacıhüseyn Gəncəli oğlunun öldürüldüyünü eşidib dərhal hadisə yerinə qaçır.

Hacı Hacıhüseyn kəndin hörmətli, nüfuzlu ağsaqqallarından idi. Aclıq illərində o, qonşu Astraxanbazara (indiki Cəlilabad rayonu) gedərək, oradan gətirdiyi taxılı savabına imkansız ailələrə paylayardı. Gecə qaranlığında atəşin parıltısına erməni quldurları Əhmədin gizləndiyi yeri güllləyə tuturlar. Əhməd gülləsi tükənənədək vuruşmuşdu. Onun ölümünə bütün kənd ağlayırdı.

1918-ci ilin martında Lənkərana gələn rus-erməni daşnakları quldur Şıvkunovun dəstəsi ilə əlaqəyə girərək şəhəri dənizdən və sahildən top atəşinə tutmuşdular. Ağabacı nənəmin dediyinə görə, dənizdən top mərmilərindən biri Molla Davudun evinə düşmüşdü. Xoşbəxtlikdən mərmi partlamamış, tüstülənə-tüstülənə sönmüşdü. Amma təsirindən Molla Davud "Yasin" oxuyan yerdə keçinmişdi. Bir yaşında olan qızı Balabəyim beşikdə yatmışdı. Köməyə gələn qonum-qonşu tüstüdən boğulmaqda olan körpəni tələm-tələsik beşik qarışıq evdən çıxarmağa nail olmuşdular. Balabəyim 1968-ci ildə 50 yaşında vəfat edib.

***Vilvan kəndində yaşayan ana tərəfdən babam Əmənulla Əzimov danışardı:***

– 1918-ci il mart-aprel ayları idi. Kəndimizə bir dəstə atlı gəlib cavanları bir yerə yığdı. Onlar rus və başa düşmədiyimiz dildə danışırdılar. Şıvkunovu ilk dəfə onda gördüm. Dəstə bizi başına yığıb Ləkər körpüsünədək müşayiət etdi. Ali Əzimov, Mikayıl Quliyev, Davud Rəhimov, Mahmud Şərifov və başqaları da bizimlə idilər. Hərəmizə bir tüfəng verib dedilər ki, səngər qazın, vuruşacaqsınız.

Biz düşmənin kimlər olduğunu bilmirdik, amma itaət edərək səngər qazdıq. Bizə güllə verməmişdilər. Deyirdilər ki, patronu "düşmən" yaxınlaşanda verərik. Qaranlıq düşərkən özümüzü Ləj meşəliyinə tərəf verdik, oradan özümüzü kəndə çatdırdıq. Bundan qəzəblənən şıvkunovçular Girdəni, Veravul və Vilvan kəndlərini top atəşinə tutdular. Vilvan kəndində bir neçə ev yandı, ölənlər də vardı.

Adamlar Osakücə meşəliyinə çəkildiyindən tələfat çox olmadı. Atışma sakitləşəndə Şıvkunov öz quldur dəstəsi ilə yenidən kəndə gəldi, tüfəngləri istəyirdi. Ağsaqqalların təkidi ilə silahları qaytardıq. Gülləmiz olsaydı quldurlarla döyüşərdik, amma o vaxtlar güllə tapmaq müşkül məsələ idi. Şıvkunovun əmrinə itaət etmədiyimizə görə bizi ağaca sarıyıb öldürmək istəyirdilər. Amma təsadüfən kəndimizə gələn İbi İbayevin partizan dəstəsi onlarla döyüşə girdi. Nəticədə Şıvkunovun dəstəsi qaçmaq məcburiyyətində qaldı.

Ləkər körpüsü ətrafında 10 nəfər öldürülmüş, kəndə yaxın tərəflərdə 5 ev yandırılmışdı. Təsadüfi deyildir ki, buradakı qanlı döyüşlər barəsində söz də qoşulmuşdur. El-obada deyilən sözlər bu gün də yaddaşlarda qalmışdır. Yas yerlərində qadınlar göz yaşlarını tökə-tökə deyirdilər:

**Girdəni elə bir kənd idi,**
**Dörd yanı gülbənd idi.**
**Xaraba qalsın o Ləkər,**
**O da bir səngər idi.**

***Veravul məktəbinin direktoru Şahrza Abdullayev mart soyqırımı hadisələrindən ürək ağrısı ilə danışardı:***

– Girdəni kəndində, Ləkər körpüsünə tərəf uzanan yerdə, Əli meydanı adlanan ərazidə bazar yerləşirdi, - dedi. - Qəzanın Ucarud tərəfindən və digər yerlərdən gələnlər bazara öz mallarını çıxarırdılar. Vilvandan olan Boylu qızı Gülbanu ilə Girdəniyə gedirmiş. Yolda arabanı gülləyə tuturlar, ata və qızı vəhşicəsinə qətlə yetirilir.

Lənkəranın keçmişi ilə bağlı tarixçi-müəllim Əlibala Nurullayevlə neçə-neçə maraqlı yazı hazırlamışıq. Sonra Lənkəran Ağasaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov da bizə qoşuldu. 2014-cü ildə birgə hazırladığımız "Gərmətük salnaməsi" kitabı işıq üzü gördü. Nələr yazılmayıb bu kitabda?! Vaxt olub ki, igidlər silaha sarılıb qaçaq-quldurlarla, erməni daşnakları ilə mübarizə aparıblar. Sonra partizan dəstələri yaradaraq pusquya keçiblər. Bu dövrdə bölgəni qorumağa gəlmiş Camal paşanın qərargahı Gərmətükdə Kərbəlayı Nurullanın evində yerləşirdi. Qərargahı 300 nəfərdən çox döyüşçü mühafizə edirdi.

***Jurnalist Hacı Mehman Fərzullayev babası Ayazın dediklərinə istinadən danışır ki, o günlərdə Kərgəlan kəndində 70 kişini çay qırağında al-qana boyamışdılar.*** İsmayıl Əliyev, Əli Ağayev, Mahmud Əzizov, Mirqulamhüseyn Miriyev, İsa Qurbanov, Fərzəli Quliyev, Mikayıl Əliyev və başqaları bu faciənin qurbanıdırlar: "Həmin günlərdə Əliyevlərin məhəlləsində bir gəlinin paltar yuduğunu görən erməni daşnakları həyətə hücum çəkirlər. Qayınata gəlini tez xalçaya büküb evin küncünə söykəyir. Əsgərlər gəlinin yerini demədiyinə görə, qayınatanı tüfəngin qundağı ilə vurub öldürmüşdülər. Bu kişi hazırda kənddə yaşayan Əliyevlərin babası olub, gəlin isə 1970-ci ilə kimi ömür sürmüş Səriyyə nənə idi".

***Tarixçi-müəllim Ə.Nurullayevin məlumatına görə,*** Gərmətük kəndinin çayqırağı qəbiristanlığında denikinçi əsgərlərdən birinin güllə ilə vurulması qırğın üçün bir bəhanə olmuşdu. Velədili Mirsalam Gərmətükə gələrək xəbər verir ki, ermənilər gəlirlər, ehtiyatlı olsunlar. Vahiməyə düşən silahsız adamlar rayonun dağ kəndlərinə - o cümlədən, Yuxarı Nüvədi, Sefidor, Lüvəsər, Rvo və digər yerlərə üz tuturlar.

Cavanlardan bir hissəsi kənddən çıxmır. Kəndin adlı-sanlı adamlarından biri, ikimərtəbəli evi olan Kərbəlayı Səfərəli deyir ki, bizdən taxıl istəsələr taxıl, pul istəsələr pul verərik, təki bizə dəyməsinlər. Buna baxmayaraq, kəndə soxulan əsgərlər tabe olmayanları sorğu-sualsız gülləyə tutmuş, evləri yandırmışdılar. Yusif Fərzulla oğlunun çayxanasına və onunla üzbəüz olan İbrahim Səfər oğlunun evinə od vurulmuşdu.

Qonşuluqda Abuzər Ağababa oğlu Babayevi və onun meyitinin üstünə sərilən arvadını da güllələyirlər. Bundan ürəyi soyumayan ermənilər Kərbəlayı Səfərəli Cabbar oğlunun taxıl anbarına girərək onu güllələyib, sonra qapını bağlayaraq ikimərtəbəli evini yandırırlar.

Əsgərlər gənc Mirəbdülvahabı həyətlərində güllələyərkən atası Mirtağı özünü oğlunun üstünə atır, Mirtağını da güllələyirlər. Bu vəziyyətdə seyidin başından düşən əmmaməni təpikləyərək meyitdən uzaqlaşırlar. Bunlara qonşu olan Məşədi Həsəni (Qurbanəlinin atası), Əhməd Əkbər oğlunu (mərhum Eyvazın ana babası), Mirmusa Mirmustafa oğlu Həsənovu, Sadıq Nəzərəli oğlunu, Musa Qasım oğlunu güllələyirlər.

***Müəllim Əbülqasım Qasımovun məlumatına görə,*** Balasən Lələyevin darısqal evində yeddi cavan sığınacaq tapıbmış. Əsgərlər evin qabağından keçərkən qapının səsinə geri dönürlər. Cavanları evin qabağına düzüb güllələyirlər. Onlardan İzzət bəy Lənkəran konsulxanasında işləyirdi, fars dilini yaxşı bilirdi. İzzət babası Nəsirin (kəndin yuxarı başında yaşayan Əşrəf Axundovun atası) evinə qonaq gəlmişdi. Öldürülənlər arasında Məşədi Museyib Kərbəlayı Nurulla oğlu da vardır.

Qəbiristanlıqda onun başdaşı üzərində belə yazılıb: "Məşədi Museyib Kərbəlayı Nurulla oğlu, 1336, rəcəb ayının 20-si, cümə günü, miladi 26 aprel 1918-ci il". Yunus Nəsir oğlu, Fətəli Şükür oğlu (Şükürün ikinci oğlu evdə, xəstə yatağında ikən boynu kəsilir), Əli Qasımlələ oğlu və başqaları da vəhşicəsinə qətlə yetirilmişlər.

Məşədi Zülfüqar Məmməd oğlu Məmmədov (1880-1968) yaralı halda canını qurtara bilmişdi. Qaçanda güllə ayağının arxa hissəsinə dəymişdi. Qəbri, öldürülən qardaşının qəbri ilə yan-yanadır. Mikayıl Qasımov da canını qurtara bilmişdi. O, öldürülmüş qardaşı Əliyə kömək edə bilməyəcəyini görüb ağaclıqlar arasından qaçmışdı.

Şahüseyn Məmmədovun ana babası Əhməd Hacı Məhəmməd oğlu da bu faciənin qurbanıdır. Axund Hacı Asif Əsgərov onun başdaşının üzərində nəstəli xətlə ərəb əlifbası ilə yazılmış "Məşədi Əhməd Hacı Məhəmməd oğlu (hicri 1336, rəcəb ayı 20)" sözlərini oxudu.

***Əlimuxtar Rəhimov atası Qənidən babası Rəhimlə bağlı bir hadisə haqqında danışaraq dedi:***

– 26 aprel 1918-ci il qırğını zamanı babam Rəhim ailəsi ilə sığınacaq üçün dağ kəndi Əşləyə gəlib. Ailəni tanışının evində qoyandan sonra Gərmətükə qayıdıb. Həyətində bir erməni əsgəri ilə üz-üzə gəlib. Erməni əsgəri silahını ona tuşlayır. Rəhim cəld tərpənərək özünü küçəyə tərəf atır. Güllələr ondan yan keçərək heyva ağacına dəyir. Güllə izləri son illərədək qalmışdı. Həmin gün kənddə 70-dək günahsız insan güllələnmişdi.

Gərmətük ağsaqqalları Kərbəlayı Nurulla, Kərbəlayı İsaq, Məşədi Qasım və başqaları 26 aprel 1918-ci il qırğınından sonra gəmidə olanlarla danışıq aparmaq istəyirlər. O zaman gəmi sahildən, təqribən, 1 kilometr aralı dayanırdı. Gəmiyə qayıqla gedirdilər. Ağsaqqalların əlində ağ bayraq vardı. Ağsaqqalları tanıyan şəhər sakinləri məsləhət görürlər ki, gəmiyə getməsinlər, yoxsa onları da qana qəltan edərlər. Bu sözdən sonra ağsaqqallar geri qayıdırlar.

***Ötən əsrin 80-ci illərində Gərmətük qəsəbə sakini Məmmədəli Məmmədov Bakı Dəmiryol Vağzalında 1918-ci ildə onların kəndindəki qırğında iştirak etmiş yükdaşıyan bir erməni ilə rastlaşır.*** Erməni kənddəki məscidin yanında Kərbəlayı Nurullanın ikimərtəbəli evini necə yandırdığından danışır. Kərbəlayı Nurullanın nəvəsi Əlibala müəllim Bakıya gələrək ermənininin sorağına düşür. Qarabağ hadisələrinin təzə-təzə vaxtları imiş. Dəmiryol vağzalında ona deyirlər ki, Rostom Xaçaturyan adında həmin şəxs Montində yaşayırdı, hadisələrdən bir qədər əvvəl ölüb.

Dəhşətli faciələr Nuru Paşanın rəhbərlik etdiyi Qafqaza İslam Ordusunun Azərbaycana gəldiyi günədək davam etmişdir. Lənkəran qəzasına gələn dəstəyə Camal Paşa rəhbərlik edirdi. Camal Paşanın qərargahı Gərmətük kəndində Kərbəlayı Nurullanın evində yerləşirdi. Qərargahı 300 nəfərdən çox döyüşçü mühafizə edirdi. Türklər barabanların müşayiəti ilə oxuya-oxuya kəndə daxil olmuşdular. Mahnı belə idi:

**Türk oğluyam, ölmək istərəm,**
**Canım qurban olsun Azərbaycana.**
**Torpaq-tikan olsun yatağım, yerim,**
**Canım halal olsun Azərbaycana.**

Qəni Nurullayev (1905-1998), Əbülqasım Qasımov (1911-2001) Camal Paşanı yaxından görmüşdülər. Onların dediyinə görə, Camal Paşa sağlam bədənli, eyni zamanda çox sərt və qəddar adam olmuşdur. O, hətta öz əsgər və zabitlərinə qarşı çox amansız idi. Qanun-qaydanı pozanı qırmancla döyür, ayaqlarını fallaqaya saldırardı. Camal Paşanın yarımmetrlik uzunluğunda bəzəkli bir əl ağacı vardı. Onu həmişə əlində oynadardı. Həm yürüşdə, həm də döyüşdə ordunun qabağında olardı və deyərmiş: "Gavur gülləsi mənə dəyməz".

Əlibala müəllim danışardı ki, Lənkəranın denikinçi rus-erməni birləşmələrindən təmizlənməsində türk qoşununun mühüm xidmətləri vardır. Gərmətük yaxınlığında belə bir hadisə oldu. Yolu azmış bir denikinçi az qala əsir götürüləcəkdi. O, Küənil kəndi tərəfində kolluğa girərək gizlənir. Tutulacağını gördükdə isə ətrafa od vurub kolluq qarışıq özünü yandırır.

Mamusta kəndinin tarixinə yaxşı bələd olan və dünyaya bu kənddə göz açmış II Dünya müharibəsinin veteranı, kəndin ilk ali təhsilli ədəbiyyat müəllimi, qayınatam Şükür Şükürovun məlumatına görə, xalqımızın qanına susamış quldurlar 1918-ci ilin mart ayında Mamusta kəndində Bəhram Cəfər oğlunun gözünü çıxarmış, qulağını kəsmiş və onu diri-diri yandırmışdılar. Erməni quldur dəstələri kənddə axtarış apararkən gənc qız Cavahirin köməyinə gələn cavanları qətlə yetirmişdilər.

Maraqlıdır ki, lənkəranlı qadınlar da erməni daşnakları ilə mübarizə aparmış, hünərdə heç də kişilərdən geri qalmayıblar. Rayonun Tükəvilə kəndindən Vəsmican Məmmədova, Veravul kəndindən Səkinə xanım at çapmış, tüfəng oynatmış, yaşadıqları kəndi qaçaq-quldurlardan, erməni daşnaklarından qorumuşlar. Tükəvilə kəndindəki özünümüdafiə dəstələrindən birinə Vəsmican Məmmədova rəhbərlik edirmiş.

Azərbaycan Respublikası Prezidentinin 26 mart 1998-ci il tarixli fərmanı ilə martın 31-i Azərbaycanlıların Soyqırımı Günü kimi dövlət səviyyəsində anılması çox qaranlıq məsələləri üzə çıxartdı. 1918-ci il hadisələri tariximizin qanlı faciələrindəndir. Tariximizin həmin anları unudulan deyil. Həqiqət gec-tez üzə çıxır, haqq qalib gəlir.

***Hacı Etibar ƏHƏDOV,***
***"Aşkarlıq" qəzetinin baş redaktoru***
**Lənkəran**